**Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı Proqramı**
**“Lerik rayonunun Pirəsora və Conu kəndlərində tibb məntəqəsinin tikintisi”**
**layihəsi üzrə qrant müqaviləsinin açılış mərasimi**

**11 sentyabr 2019-cu il** tarixində, saat 13:00-da Lerik rayon Pirasora kəndində “Lerik rayonu Pirəsora və Conu kəndlərində tibb məntəqəsinin tikintisi” layihəsinin açılış mərasimi həyata keçirilmişdir. Sözügedən mərasimdə, Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zati-aliləri cənab Teruyuki Katori, Lerik rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov başda olmaqa, layihəni həyata keçirən təşkilat “Gənclərin Sosial Problemlərinin Həllinə Kömək” İctimai Birliyinin rəhbəri Anar Aslanov iştirak etmişdir.

Mərasimdə çıxış edən cənab səfir Katori layihənin əsas məqsədinin Pirəsora və Conu kəndlərinin sakinlərini təkmilləşdirilmiş tibbi xidmətlə təmin etmək və yaşayış səviyyəsini yaxşılaşdırmaq olduğunu vurğulamışdır. İcra Hakimiyyətinin başçısı cənab Bağırov isə mərasim iştirakçılarını salamlayaraq, göstərdiyi yardım üçün Yaponiya Səfirliyinə təşəkkürünü bildirmişdir.

Qrant yardımı çərçivəsində, Lerik rayonu Pirəsora və Conu kəndlərində tibb məntəqəsinin tikintisi layihəsinin ümumi məbləği **89,255 ABŞ dolları** təşkil edəcədir. Layihə Lerik rayonunda “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı” Proqramı çərçivəsində həyata keçirilən sayca 4-cüdür. Bu vaxta qədər layihələr üzrə imzalanmış müqavilələrin sayı **248** və ümumi dəyəri isə **20,000,000** ABŞ dolları təşkil edir.



